

# Regional güc, yüksək nüfuz, siyasi xarizma

## İlham Əliyev müstəqil siyasəti ilə dünyanın qlobal liderləri sırasındadır

**ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda, Ağ Evdə Avropa liderləri ilə görüşü keçirilib. Bu görüşdə əsas məsələ Rusiya-Ukrayna savaşının dayandırılması istiqamətində irəliləyişin əldə edilməsi olub. Aparılan müzakirələr, tərəflər arasında razılaşdırılan məsələlərlə bağlı müxtəlif fikirlər, rəylər irəli sürülüb. Lakin ekspertlərin fikrincə, Rusiya-Ukrayna münaqişəsinin çözümü ilə bağlı Vaşinqtonda keçirilən görüşdə hansı nailiyyətlərin əldə olunması barədə danışmaq hələ tezdir. Ukrayna dövlətçiliyinin üz-üzə qaldığı bu sınaqdan çıxış yollarına dair qərarı şübhəsiz ki, xalq verməlidir. Təslim olmaq istəməyən və səbirlə qələbəsini gözləyən xalqa qalib gələ biləcək qüvvə isə yoxdur və bunu müasir tarixdə Azərbaycan xalqı özünün parlaq zəfəri ilə bütün dünyaya sübut edib. Torpaqları 30 il ərzində işğal altında olsa da, xalqımızın əzm və iradəsini heç kim, o cümlədən Vaşinqtondakı görüşə toplaşmış dövlətlərin və beynəlxalq təşkilatların rəhbərləri belə dəyişə bilməyiblər, çünki Azərbaycan xalqının qarşısında bir amal olub: ərazi bütövlüyünün bərpası və torpaqlarımızın geri qaytarılması.**

Ağ Evdəki görüşdən isə ən yaddaqalan an nə qədər paradoksal olsa da, danışıqlar, yaxud hər hansı çıxış yolu üzərində fikir mübadiləsi deyil, Avropa liderlərinin sakit, sahmanlı, dinməz-söyləməz, sanki müəllimindən qorxan uşaqlartək ABŞ Prezidentinin masası qarşısında əyləşib onu dinləmələrini əks etdirən fotogörüntülər oldu: Böyük Britaniya, İtaliya və Almaniyanın hökumət başçıları, Fransa, Ukrayna və Finlandiyanın prezidentləri, NATO-nun Baş katibi və Avropa Komissiyasının rəhbəri...

### Sülhə manеə yaradanların müharibədən qurtuluş axtarışı

Ukraynanın düşdüyü bu mürəkkəb vəziyyətdə həmin şəxslərin təmsil etdikləri dövlətlərin rolu az olmayıb. Düzdür, Rusiyanın Ukraynada müharibəyə start verdiyi anda Britaniyanın Baş naziri Kir Starmer, Almaniyanın kansleri isə Fridrix Merz deyildi. Ancaq Fransa, Almaniya, Britaniya kimi dövlətlərin qarşısında duran əsas fundamental hədəflər, xarici siyasət problemləri tez-tez dəyişmir. Vasitələr fərqli ola bilər, amma hökumətlərin yenilənməsi ilə hədəflər dəyişməz olaraq qalır. Bu baxımdan görüşdən göründüyü kimi, Donald Trampın qarşısında təkcə liderlər deyil, onların təmsil etdikləri dövlətlər sıraya düzülüb.

Bu dövlətlərin hər birinin, əsasən isə Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Ukraynadakı acınacaqlı durumda birbaşa günahı var. Bu gün Ukrayna xalqının yaşadığı faciədə, hər gün canların itirilməsində, qurbanların verilməsində fon der Lyayen ən çox məsuliyyəti olan şəxslərdən biridir. İndi onun Tramp qarşısında hansısa səhv əməl törətmiş kimi oturub ABŞ prezidentini dinləməsi xoş olmayan mənzərədir.

Ursula fon der Lyayen o şəxsdir ki, illər boyu Azərbaycana qarşı qarayaxma kampaniyasına rəvac verməklə bu prosesin ön cərgəsində durub. Azərbaycana qarşı, ərazi bütövlüyümüzə və suverenliyimizə qəsd xarakterli çıxış və bəyanatlar "qoca qitə"nin beynəlxalq strukturlarından olan məhz Avropa Komissiyasında erməni lobbisi qarşısında ağ bayraq qaldıran bu xanımın susqun razılığı fonunda səslənib. 2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra qalib Azərbaycanın sülh təşəbbüslərinə hər cür zərbə vurub, ərazimizdəki separatçılıq yuvasının mühafizə və müdafiəsinə qalxmış bu xanım elə həmin Vaşinqtonda, həmin Prezident Donald Trampın vasitəçiliyilə imzalanmış Birgə Bəyannaməni ən azı 4 il ləngidənlərin arasında ilk sırada duranlardan biridir. Cənubi Qafqazda sülhün bərqərar olmasına hər vəchlə manеələr yaradan bir şəxsin indi sülh axtarışı ilə okeanın o tayına gəlməsi adamda təəccüb doğurur.

Ursula fon der Lyayen o şəxslərdəndir ki, Ukraynada müharibənin başlaması səbəbindən mavi yanacaq üçün Bakıya gəlib, müqavilə imzalayandan qısa müddət sonra Azərbaycana qarşı aparılan çirkin təbliğatın əsas simalarından birinə çevrilib.

Co Bayden Kiyevlə Moskva arasında sülh yaratmaq əvəzinə, Rusiyanı qıcıqlandıran, Ukraynanı isə təcrübəsizliyi səbəbindən yanlış yola sürükləyən sabiq ABŞ prezidenti olub.

Bu gün Bayden və ailə üzvləri təkcə ABŞ-ni deyil, bütün dünyanı dəyişən qanlı hadisələrdə günahkar hesab edilirlər. Bayden və komandasının beynəlxalq aləmdə baş verən proseslərə birtərəfli münasibəti rəhbəri olmuş dövlətin nüfuzunu aşağı salmaqla yanaşı, Ukraynadakı müharibə kimi münaqişə ocaqlarının meydana çıxmasına, yüz minlərlə insanın tələf olmasına səbəb olub.

Baydenin özü və administrasiyasının Ukraynadakı müharibədə olduğu kimi, bir çox beynəlxalq əhəmiyyətli hadisə və proseslərdə neqativ rolu var. O, saxta erməni soyqırımını tanımaqla bütün türk dünyasına qarşı qərəzli mövqedə durduğunu göstərib, ABŞ-nin erməni diasporu və lobbisinin avantüralarının reallaşmasında bir alətə çevrilməklə dünyanın super güc mərkəzi olan bir dövlətin prezidenti vəzifəsinin hörmətdən düşməsinin səbəbkarı olub. Cəmi altı ay ərzində dünyanın dörd bir istiqamətində mövcud və potensial münaqişələrin söndürülməsinə, 30 illik tarixi olan Ermənistan-Azərbaycan gərginliyinin tarixə çevrilməsinə nail olmuş Tramp isə Baydenə sübut edib ki, iradə və səmimi sülh istəyi olarsa, ABŞ prezidentinin qarşısında bu məqsədlərin reallaşması üçün heç bir divar dayana, tab gətirə bilməz. Yetər ki, tərəfkeşlik etməyəsən. Odur ki, bu gün Trampın qarşısında oturub sakitcə onu dinləyən Avropanın "liberal" liderlərinin yanında onlarla işbirliyində olmuş Bayden də olmalı idi. Əgər yoxdursa, deməli, onu o sıralamada olan bəzi şəxslər, konkret olaraq Makron "təmsil etməli" idi və etdi... Bu həmin liderlərdir ki, ABŞ-dəki sonuncu prezident seçkilərində Donald Trampı deyil, demokratların namizədlərinə dəstək vermişdilər. Bunu da əlbəttə ki, D.Tramp çox yaxşı başa düşür və xatırlayır...

İndi həmin siyasətçilər ABŞ liderindən dəstək istəyirlər. O isə öz ampluasında dayanaraq həmin liderlərə yol göstərir. Bu, əlbəttə ki, Avropa siyasi elitasının çöküşüdür.

Bu gün hər iki tərəf müharibədən yorulub. Lakin savaşı davam etdirmək üçün həm Rusiyanın, həm də Ukrayna tərəfinin müəyyən resursları mövcuddur. Sülhə gəlmək, müharibəyə son qoymaq istiqamətində ABŞ liderinin fəallığı isə nəzərəçarpandır. Ekspertlər xüsusi vurğulayırlar ki, ABŞ-Rusiya və daha sonra Avropa liderlərinin iştirakı ilə olan ABŞ-Ukrayna görüşləri müharibənin getdiyi üç il yarım ərzində danışıqlar üçün ən geniş platformanı formalaşdırır.

Ağ Evdəki danışıqlardan sonra Donald Tramp Ukrayna üçün "ABŞ ilə koordinasiyalı şəkildə Avropa ölkələri tərəfindən veriləcək" təhlükəsizlik zəmanətlərinin müzakirə olunduğunu bildirib.

### Azərbaycan Prezidentinin göstərdiyi nümunə

Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda Birgə Bəyannaməni imzalamalarından sayılı günlər keçib. Əminliklə demək olar ki, Avropa liderlərinin hər biri həmin görüşü izləyib. Şübhə yoxdur ki, onların hamısı Azərbaycan Prezidenti İlham Əliyevin Ağ Evdə necə qürurla və əminliklə qalib dövləti təmsil etdiyini görüblər. Azərbaycan və ABŞ liderlərinin bərabərsəviyyəli ünsiyyətlərini, bir masa arxasında əyləşməklərini izləyiblər. İllər boyu olmazın manеələrə düçar etdikləri xalqın rəhbərinin dünyanın birnömrəli dövlətinin rəhbəri ilə müstəqil şəkildə fikir mübadiləsi apardığına baxıblar. Bax, bu gün onların Tramp qarşısında da boynubükük oturmaları ölkələrinin Azərbaycanla, özlərinin isə İlham Əliyevlə fərqlərinin aynasıdır. Bir özlərinə baxsınlar, bir də bizim sülh və suverenlik mücadiləmizə əngəllər yaratdıqlarını xatırlasınlar. Azərbaycan liderinin III Qlobal Şuşa Media Forumunda söylədiyi sözlər həmının yaddaşındadır: "Heç vaxt işğalla barışmayın, heç bir halda təslim olmayın!".

Donald Trampın dərs keçdiyi Avropanın aparıcı siyasətçiləri, diplomatları bu mesajların haraya ünvanlandığını da yaxşı bilirlər. ABŞ Prezidentinin "Siz böyük siyasətçisiniz", - deyə müraciət etdiyi İlham Əliyev də bu gün Avropanın bir çox liderinə siyasətdən, diplomatiyadan dərs keçə bilər. Çünki İlham Əliyev həm daxildə, həm də beynəlxalq aləmdə təkcə siyasi xarizması ilə deyil, eyni zamanda ünsiyyət bacarığı ilə seçilən, fərqlənən liderdir.

Nüfuzu, özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə, başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri möveqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət var, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Dünya liderləri, o cümlədən ABŞ lideri D.Tramp dövlətimizin başçısının siyasi baxışlarına böyük önəm verir, onunla ciddi məsələlərdə müzakirələr, məsləhətləşmələr aparırlar.

"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub", - deyən Azərbaycan Prezidenti buna hər zaman böyük əminliyini ifadə edib. Reallıq isə bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir vaxtlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə daxil olub. Bütün bunlar Prezident İlham Əliyevin Azərbaycan dövlətinə və xalqına qazandırdığı nailiyyətlərdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 21 avqust (№175).- S.6.